*Aygün Sücəddin qızı CABBAROVA*
*magistrant*
*E-mail: aygüncabbarova1122@gmail.com*
*Elmi Rəhbər: c.f.d. Sevinc Elman qızı KAZIMOVA*
*Azərbaycan Kooperasiya Universiteti*

# AZƏRBAYCANDA EKOLOGİYA HƏRƏKATININ YARANMASINDA VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Xülasə*

Azərbaycanda ekologiya hərəkatının yaranmasında və inkişafında Heydər Əliyevin rolu əsaslı təhlil olunur. Ulu öndər ana yurdumuzu qarış-qarış gəzərkən, onun unkşafının təməl planlarını qurarkən, heç vaxt ekologiyanı, təbiəti yaddan çıxarmamış, Azərbaycan təbiətinə xüsusi önəm vermiş, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri saymışdır. Həmçinin məqalədə ekoloji siyasətin ümummilli liderin çoxcəhətli fəaliyyətinin mühüm tərkib hissəsi olması analiz olunur.

***Açar sözlər: ekoloji fəaliyyət, ekoloji siyasət, ulu öndər, Azərbaycan təbiəti, yaşıl dünya, ekoloji qərarlar və s.***

***

Fəxrlə deyə bilərik ki, Heydər Əliyev deyəndə, Azərbaycan düşünülür. Azərbaycan deyəndə, göz önünə, ilk növbədə, Heydər Əliyev gəlir. Hər bir azərbaycanlı üçün tükənməz qürur mənbəyi olan hu dahi insan özü ürəkdolusu bir coşqu ilə deyir: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam..''

Ulu öndər bu gün də aramızdadır, nə qədər Azərbaycan varsa, Heydər Əliyev vardır. Bu iki varlığı bir-birindən ayırmaq mümkün deyil. Heydər Əliyev hər bir azərbaycanlının qəlbindədir. Xoşbəxt xalqıq ki, Tanrı bizə belə dahiyanə şəxsiyyət bəxş etmişdir. Xalqımız gündəlik həyatında, strateji amallarında Heydər Əliyev nəfəsini, hərarətini hiss etdikcə, daha güclü, daha əyilməz və inamlı olur. Heydər Əliyev elə böyük və həssas şəxsiyyətdir ki, Azərbaycanımızın heç bir xoşbəxtlik və firavanlıq ölçülərini nəzərdən qaçırmazdı. Müstəqilliyimizin memarı kimi müstəqilliyə xələl gətirən ən böyük sarsıntılardan tutmuş, ən xırda həssas nöqtələrə qədər heç birinə biganə qalmazdı. Xalqımızın, dövlətimizin taleyi ilə bağlı ən ümdə məsələləri vaxtında qabardıb, uyğun tədbirlər görərdi. Ulu öndər bizim xilaskarımız, ideyaları nicat yolumuzdur.

Ulu öndər ana yurdumuzu qarış-qarış gəzərkən, onun inkişafının təməl planlarını qurarkən, heç vaxt ekologiyanı, təbiəti yaddan çıxarmamışdır. Çünki Tanrı bizə əlçatmaz bir təbiət gözəlliyi bəxş etmişdir. Dünyanın ən böyük alimləri, ekoloqları ölkəmizdə olmuş, nadir təbiətimizin füsunkarlığından vəcdə gəlmişlər. Bütün dünya həm tarix, həm gözəllik baxımından Azərbaycanımızı ən nümunəvi coğrafiya sayır. Elə buna görə də Heydər Əliyev Azərbaycan təbiətinə xüsusi önəm vermiş, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri saymışdır.

Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Bu iş ardıcıl, müntəzəm və sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. Təbiətə yönəlmiş hər hansı qəsd ulu öndəri çox hiddətləndirərdi: "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız... [2, s.318]. Bu sözlərdə görkəmli dövlət xadiminin böyüklüyü qədər sadəliyi, dərinliyi qədər şəffaflığı əksini tapır. Biz burada qəbul etdiyi qərarların arxasında duran saf qəlbli, qüdrətli bir insanın durduğunun şahidiyik. Əlbəttə, bu böyüklükdə, dəyanətdə və düşüncədə olan insana şahidlik lazım deyil. Çünki hara baxırsan, onun saf toxum səpdiyi Azərbaycan məkanından, hətta

bütöv keçmiş SSRİ məkanından səs gəlir: canlı insan səsi, təbiət səsi, göylərə ucalan ağacların, yerlərdə uzanan su kanallarının səsi deyir ki, biz o böyük insanın, geniş qəlb sahibinin insanlığa xidmət edən əməllərinin şahidiyik.

Ulu öndərin möhtəşəm ekoloji fəaliyyəti haqqında B.Hüseynovun qələmə aldığı 500 səhifəlik "Azərbaycan təbiəti: dünən, bu gün, sabah" adlı kitabında ətraflı danışılmışdır. Jurnalist bu məqaləni oxucuların mühakiməsinə verəndə, ümummilli liderimiz haqqında bir çox kitabları bir daha oxumuş, onun imzası ilə həyata vəsiqə alan təbiətin mühafizəsi ilə bağlı tarixi sərəncamlar, sənədlər və qanunçuluq aktları ilə tanış olmuş və öz araşdırmalarında bundan geniş istifadə etməyə çalışmışdır. Bu məqalənin ərsəyə gəlməsinə uzun illər boyu qazandığı ekoloji təcrübə də kömək etmişdir. [2, s. 235].

Qeyd edə bilərik ki, ekoloji siyasət ümummilli liderin çoxcəhətli fəaliyyətinin mühüm tərkib hissəsidir. Hələ Azərbaycan Dövlət Universitetində, Praqa Dövlət Universitetində, M.V.Lomonosov adına Moskva Dövlət Universitetində keçirdiyi görüşlər zamanı ulu öndərin ekoloji siyasəti barədə verilən sualları cavablandırmış, bundan qürur duymuşdur. M.V.Lomonosov adına Moskva Dövlət Universitetində ekoloqların beynəlxalq görüşündə məşhur ekoloq-alim, akademik Leonid Petroviç Kuzmin bu sahəyə aid kitabı [2] vərəqlərkən ümummilli liderimiz Heydər Əliyevin şəklini görüb, hörmət əlaməti olaraq qeyri-iradi ayağa durdu. Salona gözəl izahat verdi. Onlar da həmrəylik göstərərək, ayağa qalxdılar. Bu fakt biz azərbaycanlılar üçün çox böyük başucalığı idi. Heydər Əliyevin adı harda səslənirsə, orda Azərbaycana qibtəediləsi hörmət göstərilir.

Ulu öndərimizin müdrik siyasətini uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyev təbiətə dövlət qayğısını daim diqqət mərkəzində saxlayır. Təbiətin mühafizəsi ilə əlaqədar yeni şəraitə uyğun milli proqramlar hazırlanır. Əlbəttə, Prezident İlham Əliyevin imzası ilə həyata keçirilən bu proqramlar təbiətimizin daha da zənginləşməsindən, təbii sərvətlərimizin etibarlı və effektli mühafizəsindən xəbər verir.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii ehtiyatlardan istifadə olunması istiqamətində məqsədyönlü siyasəti 1993-cü ildə yenidən hakimiyyətə gələn respublika Prezidenti davam etdirdi. 1997-ci il mayın 11-də Bakı şəhərinin Nizami rayonunda yeni salınmış parkın açılışında bu barədə danışan Heydər Əliyev demişdir: "1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq... Doğrudur, mən Azərbaycandan gedəndən sonra və xüsusən 1987-1988-ci illərdə çox nadan adamların respublikamıza rəhbərlik etdikləri dövrdə, bundan sonra Azərbaycanda, o cümlədən Bakıda hərc-mərclik, özbaşınalıq hökm sürdüyü zamanda, cinayətkar adamların, dəstələrin böyük vəzifələr tutduğu, hakimiyyətə gəldiyi dövrdə Azərbaycan, Bakı üçün əziz olan bu sahə nəinki unuduldu, hətta, bizim böyük əziyyətlərlə əkdiyimiz, becərdiyimiz, boya-başa gətirdiyimiz ağacları kəsməyə başladılar". Hər bir ağaca, bitkiyə verilən qiymət meşəsalma tədbirlərinin genişləndirilməsi üçün böyük təkan olmuş, ulu öndər Heydər Əliyevin bilavasitə göstərişinə əsasən və qayğısı nəticəsində respublikada meşə-bərpa tədbirləri intensiv surətdə həyata keçirilmişdi. Belə ki, 1969-1982-ci illər ərzində dövlət meşə fondu torpaqlarında 51 min hektar sahədə yeni meşələr salınmışdır. [1,s.3].

Dünyada insan sayının artıb, insana da lazım olan bütün faydalı təbii nemətlərin sürətlə azaldığı bir dövrdə ölkələrin bitməyən biznes yarışı, soyumayan müharibə qisası və siyasi ambisiyalarının yerinə hər kəs üçün yaşıl dünya naminə həmrəy olması bütün bəşəriyyətin gələcəyini xilas edə biləcək ən düzgün seçimdir. Bu mənada, yaşadığımız "Yer" adlı kiçik planetdə dövlətlərin iqtisadi və hərbi gücündən, yaxud sosial-mədəni inkişaf səviyyəsindən asılı olmayaraq, hamını eyni dərəcədə maraqlandıran yaşıl dünyaya yenidən qovuşmaq üçün bu gün ölkəmizin öz liderliyini ortaya qoyması ümumbəşəri məqsədlərə xidmət edən ən nəcib təşəbbüsdür.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməyə həmişə hazır olduğunu, özünün, bilavasitə, qlobal ekoloji problemlərdən və ekosiddən əziyyət çəkdiyi halda belə məsələlərin yalnız planetar miqyasda həllinə çalışdığının əyani sübutudur. Bu qərar elə bir vacib zamanda verilmişdir ki, artıq ekoloji vəziyyət bəşəriyyətin müasir inkişaf mərhələsində onun varlığı üçün ən mühüm problem

dərəcəsinə çatmış, yaşamaq üçün təkcə təmiz ərzaq məhsulları deyil, hətta təmiz hava, su belə ən qıt nemətə çevrilmişdir. Buna görə də insan ayağının dəydiyi hər yerdə müəyyən dərəcədə ekoloji böhranın mövcud olduğunu nəzərə alsaq, dünyada hər kəsin yaşıl gələcək üçün məsuliyyət daşıdığını göstərmək mümkündür.[3, s.4.].

Ekoloji böhranın isə müxtəlif səbəbləri vardır. Planetdə insan sayının çoxalması ilə sənaye və kənd təsərrüfatı məhsulları istehsalının da artması, plansız və qeyri- rasional təsərrüfat fəaliyyəti, nəqliyyat, hasilat, həmçinin hərbi əməliyyatlar nəticəsində təbiətə atılan tullantılar ekoloji vəziyyəti gərginləşdirən səbəblərdəndir. Yeri gəlmişkən, bu mənada, çoxları haqlı olaraq sənaye, nəqliyyat, yaxud kənd təsərrüfatında havaya və suya atılan zəhərli qarışıqlardan tez-tez danışdıqları halda, nədənsə iri hərbi güclər yağış kimi səpələdikləri ballistik raketlərin və partlatdıqları bombaların havaya nə qədər tullantı atdıqlarından bəhs etmək istəmirlər. Lakin istənilən halda ekoloji böhranın dərinləşməsi təbiətin ibtidai görüntüsündən uzaqlaşması, biomüxtəlifliyin məhv olması, landşaftın öz əvvəlki görkəmini itirməsi ilə müşahidə olunur. Beləliklə də ekoloji böhranı çox zaman yaşıl təbiətin yox olması ilə izah etsələr də, əslində, bu, dənizlərin dibindən tutmuş kosmosun dərinliklərinə qədər planetin hər yerində insanlığı narahat edən, bütün canlı və cansız təbiətin gələcəyini düşündürən məsələdir. Burada ən son fəlakət isə qeyri-adi xəstəliklərin yayılması və insan ömrünün qısalmasıdır. Ona görə də cəmiyyətdə iqtsadi-mədəni inkişafla paralel olaraq ekomədəniyyətin də formalaşması və onun cəmiyyətin hər bir təbəqəsinə, hər bir fərdə aşılanması, bəşəriyyətin "ətrafımızdakı dünya ilə sülh şəraitində yaşamaq" zərurətinin dərk olunması günün tələbidir.

Yaşıl dünya naminə həmrəylik hərəkatı ölkəmizin məruz qaldığı ekoloji təhdidlər və onların qarşısının alınması üçün apardığı mübarizə və qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi ilə sıx bağlıdır. Azərbaycanın təbii sərvətlərini çapıb-talamış işğalçı Ermənistanın regionda səbəb olduğu ekoloji disbalansın aradan qaldırılması, uzun illər sənayedə mövcud olmuş sovet texnologiyasından yeni ekoloji təmiz üsullara və avadanlıqlara keçilməsi, karbohidrogen enerji ehtiyatlarından alternativ enerji mənbələrinə keçid, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurdakı dağıdılmış ərazilərdə ağıllı yaşayış məntəqələrinin yaradılması və Naxçıvanın yaşıl enerji zonası elan edilməsi qarşıya qoyulmuş mühüm vəzifələrdəndir. Azərbaycan Respublikası bu sahədə dünya birliyi ilə daha sıx əməkdaşlıq etməklə yaxın gələcəkdə daha sağlam bir ekosistem yaradılması, bunun dayanıqlı bir müstəviyə qaldırılması üçün öz gücünü məhz bu vacib sahədə də ortaya qoymaq niyyətindədir. [4, s.29].

Azərbaycan güclü neft ölkəsidir və özünün quruda və dənizdə sahib olduğu karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarına çıxarılmasında yeni texnologiyaların tətbiqi və etibarlı əməkdaşlıq baxımından dünyada nüfuz sahibidir. Bu baxımdan 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması təkcə ənənəvi enerji mənbələrindən yaşıl enerji mənbələrinə keçidlə deyil, eyni zamanda həyatın bütün sahələrində planetin gələcəyi üçün düşünmə və bərabər hərəkət etmə vərdişlərinin gündəlik yaşayış normasına çevrilməsi üçün əlverişli fürsət ili olacağını göstərmək mümkündür. Bunun üçün isə cəmiyyətin hər bir fərdinin hər hansı bir işin, yaxud konkret layihənin ekoloji təhlükələri haqqında təsəvvürə malik olması, təbiətin mühafizəsi sahəsində hüquq və vəzifələrin həyata keçirilməsində məsuliyyəti tələb olunur. Bu mənada, "Yaşıl dünya naminə həmrəylik ili'ndə görüləcək işlərin işıqlandırılması, təbliğat və maarifləndirmə tədbirləri baxımından da qarşıda ciddi vəzifələr dayanır. Hesab etmək olar ki, insanın bütün fəaliyyəti boyunca sanitar tələblərə əməl olunması, cəmiyyətdə ekoloji təfəkkürün inkişaf etdirilməsi, yaşıllıqlara qayğı və onların sahəsinin artırılması, torpağın və suyun mühafizəsi, tüstüsüz nəqliyyata keçid, hətta inşaat işlərində düzgün məkanın seçilməsi kimi məsələlər qarşıdakı günlərdə təhlil olunacaq, hər bir insanın fərdi istehlakında, işində, turizm səyahətində və adi istirahətində yaşıl dünyaya hansı töhfələr verə bildiyini dəyərləndirməsi mümkün olacaq. Çünki yaşıl dünya məqsədinə çalmaq hər kəs üçün də eyni düşüncə və eyni yanaşmanı tələb edir.

## ƏDƏBİYYAT


1. B.S.Hüseynov. Heydər Əliyev və Azərbaycan təbiəti. "Xalq qəzeti". Bakı, 2017.
2. B.S.Hüseynov. Azərbaycan təbiəti: dünən, bu gün, sabah. Bakı, 2019.
3. Tur Az. Ümummilli Lider Heydər Əliyev. Bakı, 2021.
4. Heydər Əliyevin həyat yolu – vətənə, xalqa xidmətin misilsiz nümunəsidir., Bakı, 2023.
5. B.Muradova. Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa xidmət simvoludur.. "Azərbaycan" qəzeti.Bakı, 2019.



***Айгюн Суджеддин кызы Джаббарова***
***magистр***
***Электронная почта: aygun cabbarova1122@gmail.com***

***Севиндж Элман кызы Казимова***
***Азербайджанский Университет Кооперации***


## Роль Гейдара Алиева в создании и развитии экологического движения в Азербайджане


***Резюме***

Подробно анализируется роль Гейдара Алиева в создании и развитии экологического движения в Азербайджане. Путешествуя по нашей Родине, великий лидер никогда не забывал об экологии и природе, он придавал особое значение природе Азербайджана и считал необходимым всегда беречь ее природную и первозданную целостность. В статье также анализируется тот факт, что экологическая политика является важной составляющей многогранной деятельности национального лидера.



***Ключевые слова: экологическая деятельность, экологическая политика, великий лидер, природа Азербайджана, зеленый мир, экологические решения и др.***



***Aygun Suceddin Jabbarova,***
***master***
***E-mail: ayguncabbarova1122@gmail.com***

***Sevinj Elman Kazimova***
***Azerbaijan Cooperation University***


## The role of Heydar Aliyev in the establishment and development of the ecological movement in Azerbaijan


***Summary***

The role of Heydar Aliyev in the creation and development of the environmental movement in Azerbaijan is thoroughly analyzed. While walking around our motherland, the great leader never forgot the ecology and nature, he attached special importance to the nature of Azerbaijan and considered it necessary to always protect its natural and original integrity. The article also analyzes the fact that environmental policy is an important component of the multifaceted activities of the national leader.



***Key words: environmental activity, environmental policy, great leader, nature of Azerbaijan, green world, environmental decisions, etc.***